# Azərbaycan mədəniyyəti və ədəbiyyatı Qaraqalpaqstanda təbliğ olunacaq

20–23 oktyabr tarixində Özbəkistanın iki bölgəsində – Qaraqalpaqstan Muxtar Respublikasında və Xarəzm vilayətində keçirilən Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri çərçivəsində Nukus (Qaraqalpaqstanın inzibati mərkəzi – red.) Dövlət Pedaqoji İnstitutunda Hüseyn Cavid adına Azərbaycan mədəniyyəti və ədəbiyyatı mərkəzinin açılışı olub. Layihə Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə gerçəkləşib.

Açılışda Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, AMM-in direktoru Samir Abbasov, Bakıdan və Daşkənddən gələn qonaqlar iştirak ediblər.

İnstitutun rektoru Bayrambəy Atemuratov AMM-yə təşəkkürünü bildirərək vurğulayıb ki, Azərbaycan ədəbiyyatının və mədəniyyətinin öyrənilməsi istiqamətində bu mədəniyyət ocağının mühüm rolu olacaq.

Samir Abbasov Özbəkistanla mədəni əlaqələrin inkişafından danışaraq, rəhbərlik etdiyi mərkəzin təşkilatçılığı ilə bir çox ali məktəbdə, mədəniyyət müəssisəsində Azərbaycan mərkəzlərinin yaradıldığını bildirib. Hüseyn Cavid adına mərkəzdə Azərbaycan dilinin, ədəbiyyatının təbliğ ediləcəyi, tədbirlər, açıq dərslər keçiriləcəyi diqqətə çatdırılıb.




Qənirə Paşayeva türkdilli dövlətlər arasında, Turan ellərində əməkdaşlığın daha da gücləndirilməsindən danışaraq bildirib ki, bundan sonra Azərbaycanın Özbəkistanla, o cümlədən Qaraqalpaqstanla əməkdaşlığı daha da dərinləşəcək.

***

Səfər çərçivəsində Qaraqalpaqstan Nazirlər Kabinetinin sədri Kahraman Sariyev Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva və Heydər Əliyev adına AMM-in direktoru, səfirliyimizin birinci katibi Samir Abbasovu qəbul edib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Özbəkistana səfər zamanı bu ölkənin mədəniyyət naziri Azadbek Nazarbekov ilə görüşüb. Görüşdə ikitərəfli mədəni əlaqələr, Azərbaycanın muğam və Özbəkistanın makom sənətinin qarşılıqlı öyrənilməsi və tədqiqi istiqamətində fikir mübadiləsi aparılıb. Görüşdə iştirak edən S.Abbasov Azərbaycan və Özbəkistan arasında mədəni əlaqələr və bu istiqamətdə AMM-nin gördüyü işlər haqqında söhbət açıb.

Mədəniyyət.- 2021.- 27 oktyabr.- S.3.